Azərbaycan Respublikasının Nazirlər Kabineti

# QƏRAR

**N 142** **Bakı şəhəri, 1 aprel 2016-cı il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 yanvar tarixli 10 nömrəli qərarı ilə təsdiq edilmiş "Piyada zolağında hərəkətin svetoforla nizamlanması və avtomobil yollarında yerüstü və ya yeraltı keçidlərin tikilməsi vacib olan hallar"da dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 yanvar tarixli 10 nömrəli qərarı ilə təsdiq edilmiş "Piyada zolağında hərəkətin svetoforla nizamlanması və avtomobil yollarında yerüstü və ya yeraltı keçidlərin tikilməsi vacib olan hallar"ın 2.2-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.3-cü bənd əlavə edilsin:

"2.3. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 9-1-ci maddəsinin III hissəsində nəzərdə tutulmuş hallarda.".

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***